Azad Azərbaycan

29 aprel / 2021

# Şəhidlər haqqında salnamə

**Lerik rayonu Qarabağdan uzaq bir məkanda yerləşir. Burada Birinci Qarabağ savaşında düşmənə qarşı şiddətli döyüşlərdə əsl mərdlik və şücaət göstərmiş qəhrəman oğulların əziz xatirəsinə Şəhidlər Kompleksi ucaldılmış, bir neçə məktəb, küçə şəhidlərin adını daşıyır.**

1992-ci ildə Azərbaycanın ilk Milli Qəhrəmanı adına layiq görülmüş 11 nəfərdən biri də Lerik şəhər 2 saylı



tam orta məktəbinin yetirməsi, hamının fəxr etdiyi Valeh Əlizahid oğlu Müslümovdur. Qəhrəmanın oxuduğu məktəbdə, Valehin adını daşıyan küçədə onun büstü qoyulub, muzey yaradılıb, haqqında kitab yazılıb.

Lerikli şəhidlərə həsr olunmuş ilk kitabı yazıçı-publisist İdris Şükürlü yazmışdır. "Ölsəm, inanma" adlı həmin kitab 1996-cı ilin aprel ayında 2 min tirajla çapdan çıxmış, şəhid ailələrinə, idarə, müəssisə və təşkilatlara pulsuz olaraq paylanmışdır. İdris müəllim Qarabağ müharibəsinə və şəhidlərimizə beş kitab həsr etmişdir. Hazırda da Vətən müharibəsində şəhid olmuş igidlərimiz barədə oçerklər yazır, 6-cı kitabını çapa hazırlayır. Əlbəttə, bütün bunlar müharibəyə, şəhidlərimizə işğala məruz qalmış torpaqlarımıza güzgü tutan salnamədir.

**Belə bir salnamə yazmaq yolunu seçən gənc şair və publisist, Prezident təqaüdçüsü Xalid Mahmuda nəsib olmuşdur. Nə yaxşı ki, Milli Ordumuzun əsgər və zabitləri, şəhid oğulları barədə əsərlər yazılır, kitablar nəşr olunur, televiziya verilişləri tamaşaçılara təqdim edilir.**

Xalid Mahmudun 444 səhifədən

*Qarabağ müharibəsində Şəhidlik zirvəsinə ucalmış Lerikin qəhrəman övladlarına həsr olunmuş kitab çapdan çıxıb*

ibarət olan kitabı "Uni Print" nəşriyyatı tərəfindən nəfis tərtibatla, yağlı kağızda, yüksək zövqlə nəşr edilərək oxucuların ixtiyarına verilmişdir. Kitabın məsləhətçisi I Qarabağ müharibəsinin qazisi, "Rembo" ləqəbli Elxan Əlibəylidir. Kitab Lerik rayonunun Çayrud kəndində doğulan, hazırda Niderland Krallığında yaşayan Vəsilə Əfladdun qızı Almasovanın maliyyə dəstəyi ilə çap olunmuşdur.

Oxucunun diqqətinə çatdırmağı lazım bilirik ki, Elxan Əlibəyli keçmiş Sovetlər Birliyinin ordu sıralarında xidmət edib. 1993-cü ildə könüllü olaraq silahlı bölmə tərkibində Qarabağ uğrunda gedən döyüşlərə qatılıb. Erməni işğalçılarına qarşı döyüşlərin birində ağır kontuziya alaraq yaralanıb, bir gözü görmə qabiliyyətini itirib. O, 1994-cü ildə "Hərbi xidmətə görə" medalı ilə təltif olunub, hazırda Hollandiyada yaşayır. Vətəndən uzaqda olsa da, Azərbaycanı, Qarabağı heç vaxt unutmur. Onun qardaşı Ramin Əliyev xüsusi təyinatlıların qərargah rəisidir.

**Polkovnik-leytenant Ramin Əliyev Qarabağ müharibəsində fəal iştirak edərək ağır yaralanıb. O, Prezidentin fərmanı ilə "Vətən uğrunda" medalına layiq görülüb.**

Kitabda Milli Qəhrəmanlar: Valeh Müslümov, Fəxrəddin Şahbazov, Rövşən Abdullayev, Fərhad Ağayev, Əsgər Əliyev, Yanvar şəhidi Rüstəm Əliyev, Xocalı şəhidi Elçin Şamıyev və I Qarabağ savaşında şəhid olmuş igidlər - Prezident sərəncamı ilə "Vətən müharibəsi Qəhrəmanı" adına layiq görülmüş və bir neçə medalla təltif olunmuş tank bölməsinin komandiri Amid Heydərov, "Qarabağ" ordenli polkovnik-leytenant Mehman Şirvanov, Aprel döyüşlərində və Qarabağ müharibəsində şəhid olmuş mayor, qərargah rəisi Ramil Ağayev, XTD-nin baş leytenantı, xidmət rəisi, "Azərbaycan bayrağı" ordeninə və dörd medala layiq görülmüş Əliqismət Yaqublu, Füzuli, Cəbrayıl, Zəngilanın azad edilməsi uğrunda döyüşlərdəki rəşadətinə görə 3-cü dərəcəli "Vətənə xidmətinə görə", "Azərbaycan bayrağı" ordenlərinə layiq görülmüş Murtuz Abbasov və onlarla digər igid oğulların döyüş şücaəti barədə məlumat verilib.



Tanınmış yazıçı-publisist İdris Şükürlünün "Ölsəm, inanma", "Ömür çırağı sönmədi", "Adsız qəhrəman", "Bədənində dəfn etdilər ölümü" kitablarından sonra Xalid Mahmudun "Əbədiyyət yolçuları" adlı toplusu Qarabağdan, əzəli və əbədi torpaqlarımızın işğal edilməsindən, Vətənimizin bütövləşməsi uğrunda özlərini qurban vermiş fədailərdənbəhs edən gözəl bir nümunədir.

**Vətənini azadlığı yolunda şəhid olanların çoxunun yaşı 18-25 arasındadır. Onlar Vətənin çağırışına cavab olaraq, cəbhəyə getdilər, əsl fədakarlıq göstərdilər, doğma ocağa tabutlarda qayıtsalar da, əbədiyaşarlıq qazandılar, şəhidlik zirvəsinə ucaldılar. Onların qəhrəmanlığını, vətənpərvərlik ruhunu, qələbəyə inamını özündə əxz etdirən bu kitablar,dərc olunmuş müxtəlif janrlı yazılar, gənclərin hərbivətənpərvərlik tərbiyəsində dövlətçiliyə sədaqət, düşmənə nifrət hisslərinin gücləndirilməsində, vətən-yurd sevgisində böyük əhəmiyyətət malikdir. Vətən, torpaq, bütöv məmləkət uğrunda canından keçən mərd oğullarımız bu gün də gənclərimizə mübarizə dərsi keçirlər...**

**Səadət SULTAN**